GÖZƏLİM DÜNYA

BİR ULUSUN

Bir vətənin dildir ömürdük canı,
Bir ulusun dastanı dildir, oğul!
Dildir, oğul insan edən insanı,
İnsan edən insanı dildir, oğul!

ŞAİR OLANIN

Şair olanın dərdi dinəndə,
Misraları dəhşətə qan ağlar.

Bir dadlı gülüşdən sevinəndə,
İlhamı bulaqlar kimi çağlar.

Şair olanın könlünə dəymək –
Bir körpəni cəllad kimi döymək!..

1985

ƏL ÇALAN

Ulusun düşməninə əl çalan alçaqlardır,
Yapalaqlarla düşüb alçalan alçaqlardır.

* * *

Həyat dolu insanlığın içində,
Biz ölümdən qorxmalıyıq neçin də?!

ULU ŞAİRLƏR

Ulu sənət bir ocaqdır, sönə bilməz, yanacaq,
Bir gülüstan ki, xəzan yelləri əssin, solmur.
Duymayanlar da, duyanlar da ölürlər, ancaq
Yaşayırlar da, duyanlar da ölürlər, ancaq
Yaşayırlar, ulu şairlərə bir şey olmur.

EY ŞAİRLƏR

Ey şairlər, şeirdir
Bu dünyada səcdəniz,

Sahilsiz eşqinizdir
Yurdunuza müjdəniz.

Ruhunuzda aylanır
Mavi şəfəqlərdən iz.

Töhfəniz bir dənizdir,
Suyu içilən dəniz.

1985

* * *

Ağ günlər eşqinə oda yananlar,
Bilməz yer üzündə qaranlıq nədir.
Bədbəxtlik önündə mərd dayananlar,
Gözəlim, dünyanın ən xoşbəxtidir.

* * *

Hər kəsin dünyada öz dünyası var,
Sənət dünyası var, söz dünyası var.
Dünyada könülsüz yaşamaq olmaz,
Könül dünyasının yüz dünyası var.

* * *

Günəş görünərmi göz qamaşanda,
Qızıl şəfəqləri aşıb-daşanda?!
Görünər dühası sənətkarların,
Bizim gözümüzdən uzaqlaşanda.

* * *

Ulusun var, elin var,
Neçə milyon ölin var,
Eşqin var, əməlin var,
Ürəyin var, dilin var,
Sənin nə nisgilin var?

ŞƏKİLLƏR ALBOMU

Bir albom əlimə keçdi,
İçində köhnə şəkillər.
Açdım, açıla bilmədi,
Gözümə qapalı illər.

Bir albom əlimə keçdi,
Şəkilləri solğun, sarı,
Tanımadım keçmişlərin,
O tayından baxanları.

O illər xəyala dönüb,
O çağlar qaranlıq, uzaq,
Cavanları tanımadım,
Qocalar yabançı, yasaq.

Bu dünyadan gedənləri,
Yaddaşlardan zaman silir.
Adsız ulu babaları,
Kötükcələr hardan bilir?!

Kimdən kimi soruşsunlar,
Tanıyan, bilən qalıbmı?
Bu şəkillər kimə gərək,
Köməyə gələn qalıbmı?

Hər yoxuşun enişi var,
Biz də bir gün enəcəyik.
Bəlkə bir gün bu gərəksiz,
Şəkillərə dönəcəyik...

1985

AYRILDIQ, ATAM

Bağ-bağ açılır könlümüzün bağları, bağ-bağ,
Tağ-tağ uçulur ömrümüzün tağları, tağ-tağ,
Sağ-sağ tutuşur ruhunun aşiqləri, sağ-sağ,
Dağ, dağ çəkilir yolçuların köksünə, dağ, dağ!

Zülmət çökülür, çıxdı günəş mənzilimizdən,
Ayrıldıq, Atam, sən kimi can sevgilimizdən!

Kor-kor baxırıq yaşla dolan gözlərə kor-kor,
Tor-tor görünür pənbə şəfəqlər bizə, tor-tor,
Qor-qor közərir hisslərimiz köz kimi, qor-qor,
Zor, zor çəkilər matəminin zilləti, zor, zor!

Dünya darılır ərşə çıxan nisgilimizdən,
Ayrıldıq, Atam, sən kimi can sevgilimizdən!

Yel-yel çəkilir ahımızın tüstüsü, yel-yel,
Tel-tel sökülür ruhumuzun çalğısı, tel-tel,
Göl-göl yığılar göz yaşımız çöllərə, göl-göl,
Sel-sel dağılar həsrətimiz, yollara, sel-sel!

Dağlar yarılar ortadan aşqın selimizdən,
Ayrıldıq, Atam, sən kimi can sevgilimizdən!

Göz-göz açılıbdır yaramız, görsənə, göz-göz,
Köz-köz yaxılır bağrımızın ağrısı, köz-köz,
Tez-tez dəyişir qəlbimizin vurğusu, tez-tez,
Döz, döz deyir insan kimi daşlar bizə, döz, döz!

Bitməz yasımız, tutmasa ruhun əlimizdən,
Ayrıldıq, Atam, sən kimi can sevgilimizdən!

Rəng-rəng dəyişir doğmaların çöhrəsi,
rəng-rəng,
Təng-təng əsir ömrün gidi rüzgarları,
təng-təng,

Cəng, cəng edir azğın ölümün carçısı, cəng
cəng!
Ləng-ləng aparırlar səni son mənzilə,
ləng-ləng.

Ah, ayrılığın turküsü düşməz dilimizdən,
Ayrıldıq, Atam, sən kimi can sevgilimizdən!

Yar, yar ulusun köksünü, loğman kimi, yar, yar,
Var, var sənin eşqin orada daima, var, var!
Dar, dar gələcəkdir bu üfüqlər bizə, dar, dar!
Bar-bar bağıraq, qoy, o sağır göylərə, bar-bar!

Kimlər səni aldı obamızdan, elimizdən,
Ayrıldıq, Atam, sən kimi can sevgilimizdən!

1984

TÜRKMƏN QIZI

Bir türkmən türküsü dinlədim bugün,
Çocuqtək o ki var inlədim bu gün.

Saldı hisslərimi çənə bu türkü,
Nə qədər doğmaydı mənə bu türkü!

Kəlmələr mənimdi, sözlər mənimdi,
Yollara dikilən gözlər mənimdi.

Göl kimi durulan baxışlar mənim,
İldırımlar mənim, çaxışlar mənim.

Nələr söyləyirdi o türkmən qızı,
Fəğan eyləyirdi o türkmən qızı.

Onun iztirabı nə incə idi,
Sevdası, avazı könlümcə idi.

Ud tarımlanınca, qopuz dinirdi,
Sanırdım elliklə oğuz dinirdi.

İlahi sədalar pərdələnirdi,
Ruhuma bir gözəl dərd ələnirdi.

Bir çocuq görürdüm mələk qanadlı,
Çöhrəsi gül kimi, ləhcəsi dadlı.

Aman, türkmən qızı, adına qurban,
Dilinin duzuna, dadına qurban!

Dinlə, qardaşını, ay bacım mənim,
Sənin türkündədir əlacım mənim.

Nə qədər doğmadır mənə bu türkü,
Yaşat mənliyinlə bu ulu türkü!

Türkündə yadlara qarışmazlığın,
Yabançı səslərlə barışmazlığın.

Türkündə arınır ulus tünlüyü,
Torpaq bütünlüyü, yurd üstünlüyü.

Aman, türkmən qızı, adına qurban,
Adına bağlanan andına qurban.

Aman, türkmən qızı, söylə türkünü
Çağlayım eşqinlə mən bütün günü.

1984

* * *

Durma dərgin kimi, qurtul bu durumdan, oğlum,
Zülməti yıx, çəni yıx, adla qurumdan, oğlum!
Canlı bir ildırım ol, sıldırım ol, qartallaş,
Qartalın qorxusu olmaz uçurumdan, oğlum!

* * *

Bir odlu susuzluq – yuxusuzluq,
İçdikcə, sovuşmaz bu susuzluq!

* * *

Ulusu anlamayanlardan uzaqlaş, Xəndan,
Yurd yasaq onlar üçün, sən də yasaqlaş, Xəndan!

BÜLBÜL

Xəzan gəldi, düşdü yenə soyuqlar,
Dəli külək bağçalarda sayıqlar,
Xəzəllikdə eşələnən toyuqlar,
Necə duyar amanını bülbülün?!

Qarşı dağlar dumanlandı qarşıda,
Soldu yaşıl yamacların naxşı da,
Səhər-axşam eşidirəm qonşuda,
İnildəyən kamanını bülbülün.

Yaman gündə ər görünə, ər dinə,
Canım qurban ərənlərin mərdinə,
Dərdi çoxdur, dərman yoxdur dərdinə,
Kim tapacaq dərmanım bülbülün?!

Bir bülbülə nə su gərək, nə sünbül,
Yarı canı qızılgüldür, qızılgül,
Min könüldən aşiq olan bir könül,
Bilməlidir loğmanını bülbülün.

İnsaf nədir insan oğlu bilməli,
Ağlayanın köməyinə gəlməli,
Rəfiq Zəka, xəcalətdən ölməli,
Öldürənlər gümanını bülbülün.

* * *

Hər zaman şair yaranmışlar, cahandan
ruhlanıb,
Söyləyib dünyaya şeriylə, həyatın şərini.
Ən böyük şair o şairdir ki, candan ruhlanıb,
Göstərir kosmik fəzanın, kainatın şərini!

* * *

Ulu gözəlliklə dolu varlığı
Duymaqdır insanın bəxtiyarlığı.
Bunca yerlər geniş, göylər genişdir,
Könül darlığıdır gözün darlığı!

* * *

Ulu ustadları duymaq, anmaq,
Yapma şairləri atmaq, danmaq,
Ulusun eşqinə candan yanmaq,
Yurdu hər şeydən ilahi sanmaq,
Sənət uğrunda şəhidlikdir bu,
Qəhrəmanlıqdır, igidlirdir bu!

1985

* * *

Gələcək eşqinə coşduqca hər il,
Daha da incəlirik, yüksəlirik.
Biz bugündən dünənə doğru deyil,
Bugünə doğru dünəndən gəlirik!..

OLUNCA

Yurda arxalanıb, ulusa uydum,
Çocuqluq çağını keçmiş olunca.
Soylu ozanların sazını duydum,
Şeir bulağından içmiş olunca.

Yaxına qoymadım saxtakarları,
Duyğusu korları, hissi karları,
Səslədim ərdəmli sənətkarları,
İncini kəsəkdən seçmiş olunca.

Nəsillər dönəcək bizim çağlara,
Ağa ağ deyəcək, qaraya qara,
Bugünkü ərlərə çatacaq sıra,
Bugünlər bir uzaq keçmiş olunca.

Yaracaq zülməti parlaq ağıllar,
Gündüzə çıxacaq gözəl cığırlar,
Sənət gülşənində köklü oğullar
Köksüz alaqları biçmiş olunca.

Ey Zəka, yalanlar silinəcəkdir,
Zaman xəlbir kimi ələnəcəkdir,
Sənin də kimliyin bilinəcəkdir,
Sən gidi dünyadan, köçmüş, olunca.

1985

YARALI QUŞUN FƏRYADI

Mən nəğməli bir quş idim,
Bir gülə vurulmuş idim,
Yay kimi qurulmuş idim,
Qırıldı kamanım mənim.

Top qurub, aman, tutdular,
Tutdular, yaman tutdular,
Mənə bir divan tutdular,
Kəsildi gümanım mənim.

Yandı canım dar qəfəsdə,
Gözüm yolda, könlüm səsdə,
Günəş doğarmı məhbəsdə?
Çökdü asimanım mənim.

Ayrıldım könüldaşımdan,
İldırım çaxdı başımdan,
Qasırğalı gözyaşımdan
Dağıldı limanım mənim.

Səsim batdı hayım kimi,
Dedim: vay yox, vayım kimi.
Kimi haraylayım, kimi?
Kim olar loğmanım mənim?!

Gəlib bağrımı yardılar,
Qanadlarımı qardılar,
Azadlığa çıxardılar,
Yaxıldı imanım mənim.

Hayana vardım, olmadı,
Ahıma yardım olmadı,
Kimə yalvardım, olmadı,
Olmadı amanım mənim.

Qanadlarımı qaralı,
Yaralıyam mən, yaralı,
Yarı canımdan aralı
Tapılmaz dərmanım monim.

Necə qanım qaralmasın,
Oylağımı qar almasın,
Qəlbimi qübar almasın,
Çəkilməz dumanım mənim?!

Yaralı quşun fəryadı,
Titrədər doğmanı, yadı,
Dünyadan gözüm doymadı,
Pozuldu zamanım mənim.

* * *

Bu el bulağıdır, əyil, Xəndanım,
Dirilik suyu iç el bulağından.
El ağzı, yel ağzı deyil, Xəndanım.
El ağzı deyəni as qulağından.

* * *

Sənətkar müjdələr gətirsin gərək,
Səsini ellərə yetirsin gərək.
Yurdunun eşqiylə ötmək istəyən
Ulus məktəbini bitirsin gərək!

* * *

Mənim hər şerimdə nə söz görsəniz,
Ulusun sözüdür, bu yurdluyam mən,
Ulus sözlərinə könül versəniz,
Deyərəm, dünyada nə mutluyam mən!

* * *

Mənə yabançıdır pasaq kəlmələr,
Yurdun ovqatından uzaq gəlmələr.
Ulusun yaşayan dilinə yaddır,
Ömrünü bitirmiş yasaq kəlmələr.

* * *

Böyüyə ağzını büzmək də ədəbsizlikdir,
Gözünü boş yerə süzmək də ədəbsizlikdir,
Sallana-sallana gəzmək də ədəbsizlikdir.
Bu ədəbsizliyə dözmək də ədəbsizlikdir!

* * *

O şey ki insana gərək deyildir,
İnsanın gözündə qəşəng deyildir.

* * *

Xəndanım, ərdəmli ozanlarla ol,
Heç nədən qorxmayan aslanlarla ol!
Ulusa bağlanan, yurda bağlanan
Günəşlə boy ölçən insanlarla ol!

UCA TANRIM

Eşitdi səsimi o ulu Tanrım,
Varlığı varlıqda nur dolu Tanrım.
Açdı yollarımı şəfəqləriylə,
Qoymadı zillətdə bir qulu Tanrım!

DÜNYA DİNLƏYİR

Cılızlar ölümü anıb inləyir,
Ərdəmli oğullar onu önləyir,
Dözməyir ölməzlər həyatda heç vaxt,
Ölməzlər ulusu, yurdu dinləyir.

ÖLÜMÜN ƏN GÖZƏLİ

Oğulun borcu ulus qədrini bilməkdir, oğul,
Ölümün ən gözəli yurd üçün ölməkdir, oğul!

GÜLƏCƏK

Gerçəyin gül üzü güldükcə könüllər güləcək,
Gerçək insanlığa güldükcə gülümsər gələcək!

QURD

Tülküdən hiyləgər olan bir ovçu,
Bir qurdu öldürüb, mükafat aldı.
Bilmədi nə qədər böyükdür suçu,
Beynimə qan vurdu, qanım qaraldı.

Qurdun nə qovğası, nə cəfası var?
Fitnəyə, fəsada yad deyilmidir?
Deyirlər, qurdlarda it vəfası var,
İtlərin əcdadı qurd deyilmidir?!

Çox da qoyun sevir çobanlar kimi,
Saf-çürük etmirmi, bilənlər desin!
Qurdun pulu varmı, insanlar kimi,
Hər səhər bazardan ət alıb yesin?

Ahıldan ahıldır, ağırdan ağır,
Çaqqallar adına qara yaxıbdır.
Üzündən, gözündən igidlik yağır,
Kim durub diqqətlə ona baxıbdır?!

Məğrur, əzəmətli, həssas, vüqarlı,
Sevgi nə, yavru nə duyan canlıdır.
Bütün canlılardan o, etibarlı,
Bütün canlılardan istiqanlıdır.

Yetim körpələrin dadına yetmiş,
Atalar, qurdlarda var ağıl, deyir.
İnsan balasına dayəlik etmiş,
Məşhur "Mauqli"yə kim nağıl deyir?!

Ayılar, pələnglər, fillər, ərinməz,
Təlxəklik eyləyər hər gecə sirkdə.
Yeganə qurddur ki, orda görünməz,
Dolanar dərədə, dağda, gədikdə.

Yurddaşlar yaşadar yurdu, Xəndanım,
Qurd üroklilərin aləmi yurddur!
Gözündən ayırma qurdu, Xəndanım,
Sonin ulusunun totemi qurddur!

1983

QOVAQ

Dostum Fazil Məmmədoğluna

Göylər qaşını çatmasın,
Gözlərini ağartmasın,
Yarpaqların pas atmasın,
Gözyaşımı çağlatmasın,
Ürəyimi dağlatmasın,
Qom dolmasın içərimə,
Çürümə, qovaq, çürümə!

Varlığım iztirablanar,
Sanma bu dərdə tablanar,
Ömrüm, günüm əzablanar,
Gülüstanım xarablanar,
Quru budağın saplanar,
Küt bıçaq kimi böyrümə,
Çürümə, qovaq, çürümə!

Düşmə, ey vüqarım mənim,
Əhdim, etibarım monim,
Nə oldu o yarım mənim,
Getməz intizarım mənim,
Pozular baharım mənim,
Xəzana doğru yürümə,
Çürümə, qovaq, çürümə!

Başım məzara yürüyər,
Daşımı sitəm kürüyər,
Ağac içindən çürüyər,
Könlümü ölüm bürüyər,
Gözümün nuru əriyər,
Məni puçluğa sürümə,
Çürümə, qovaq, çürümə!

İstanbul, 1984

NAĞIL

Ay şəfəq çiləyirdi
Beyrutun üzərinə,
Nənə nağıl deyirdi
Yetim nəvələrinə,

İsrail caniləri
Quduza dönmüşdülər,
Anamı diri-diri
Torpağa gömmüşdülər.

Ata getdi cəbhəyə
Şəhidlər cərgəsində,
Öldü qəm yeyə-yeyə
Ölüm düşərgəsində.

Nənə nağıl deyirdi
Yetim nəvələrinə,
Üzdən gülümsəyirdi
Göz yumub qəhərinə.

Ələddin öz sehirli
Lampasını silirdi.
Bir anda diləkləri
Gerçəyə çevrilirdi.

Aləmi dolanırdı
Lampası Ələddinin.
Çocuqlar inanırdı
Möcüzəsinə cinin.

Söykənib buxarıya
Balaca qız yatırdı.
Artıq gecə yarıya,
Nağıl sona çatırdı.

Nənə: "Balalar, – dedi;
Göydən üç alma düşdü..."
Birdən bina titrədi,
Göydən üç bomba düşdü...

Tunis, 1984

"OCAQDAŞLARIM" KİTABI

Bu kitab toplusudur illətimin,
Yurdumun ruhuna hopmuş yasıdır!
Qara günlər yaşayan millətimin,
Gözyaşımdan qaralan aynasıdır!..

1990

YADIRĞAMAYIN

Siz ey iki fidanım,
Oğlum, atam Xəndanım,
Qızım, anam Aydanım,
Eli yadırğamayın!

Yurddaşın – el gücüdür,
Qəlb gücü, əl gücüdür,
El gücü, sel gücüdür,
Seli yadırğamayın!

Qoruyun gündoğanı,
Duyun bu ərməğanı,
Siz Şirvanı, Muğanı,
Mili yadırğamayın!

Dönüklər uçarıdır,
Uçarı qaçarıdır,
Dil elin açarıdır,
Dili yadırğamayın!

1984

SARI SİM

Çağıldayan tarın səsi,
Bilməm, nə tilsim eylədi.
Sarı simin titrəməsi,
Ürəyimdə sim eylədi.

Sarı simin türküsündə,
Sarı yarpaqlar ağlayar.
Ayrılığın bürküsündə,
Dərdli bulaqlar ağlayar.

Ağlama, ey sarı simim,
Ey sarı bülbülüm mənim.
Xəzan olar gül mövsimim,
Xəzəllənər gülüm mənim.

1980

HƏYAT ÖLÜMSÜZ OLMAZ

Bu sevgi bağçasında,
Mənim də bir gülüm var,
Gülümə nəğmə deyən,
Bir dərdli bülbülüm var.

Sevdalar aləmində,
Sevinci var qəmin də,
Sevgili sitəmində.
Sevimli bir zülüm var.

Gülüm zülümsüz olmaz,
Könlüm gülümsüz olmaz,
Həyat ölümsüz olmaz,
Bu dünyada ölüm var.

1981

GEDƏR

Bülbül ağlar gülşən üçün,
Qərib ölər vətən üçün.
Qürbət eldə vətən deyə,
Köynəyini kəfən üçün
Satıb gedər, satıb gedər.

Yaş axıdar gilə-gilə,
Dağ dayanmaz bu nisgilə.
Külə dönər yana-yana,
Son nəfəsdə son mənzilə
Çatıb gedər, çatıb gedər.

Uçar, dirəyi olmayan,
Elin gərəyi olmayan,
Ürəyi olana sarıl.
Səni, ürəyi olmayan
Atıb gedər, atıb gedər.

Könül yaşar duyğularda,
Arzularda, qayğılarda,
Sevgisiz ömür yelkəni
Bu həyat dolu sularda
Batıb gedər, batıb gedər.

Uy Rəfiqin nəğməsinə,
İlhamına, həvəsinə,
Sağ ikən unudulsa da,
Səsini yurdun səsinə
Qatıb gedər, qatıb gedər...

1985

GÜL NƏFƏSLİ BÜLBÜLƏ

Nə söyləyir qızılgülə,
Nədir düşündürən məni?
Bu gül nəfəsli bülbülə,
Kim öyrədib bu nəğməni?!

Qırovlanan könülmüdür?
Könül tütər, ömür bitər,
Alovlanan könülmüdür?
Ötər, darılmadan ötər.

Bu bülbülə yaxın gəlin,
Neçin budaqda saxlanıb?
Qızılgülə baxın, gəlin,
Nədən uzaqda saxlanıb?

O, bülbülü tikanlamaz,
Tikanlamaz o, bülbülü.
Vurulmayanlar anlamaz
Bu odlanan qızılgülü.

Zavallı bülbül inləyir,
Nə istəyir? Bilənmi var?
Qızılgülə nələr deyir,
Nələr deyir? Bilənmi var?!

Nələr deyir qızılgülə?
Budur düşündürən məni.
Bu gül nəfəsli bülbülə,
Kim öyrədib bu nəğməni?!

1985

* * *

Ölü dillər var, oğul, dünyada,
Ulusu, yurdu ömürlük ölüdür.

Acı gerçək kimidir röyada,
Qatı zülmətlə üzü örtülüdür.

Səsimiz dalğalanır hər ulusa,
Türkümüzdən salıq almış elimiz.

Ulu sevgiylə ərənlər qorusa,
Ölü dil olmayacaqdır dilimiz!

1984

* * *

Oğul, açan gərək bu ilmələri,
Necə vurublarsa, buruq-buruqdur.
Ərəb kəlmələri, fars kəlmələri,
Ulusun boynunda boyunduruqdur.

DADLI ÇİÇƏK

Sevgi! O könüllərdə açan dadlı çiçəkdir,
Bir yol sevən, əlbəttə, ömürlük sevəcəkdir!

ŞAİRİN ÖMRÜ

Şairin ömrü bahar ömrünə bənzər, mənce,
Şairin ruhu bahar!

Şairin şerinə güllər də gülümsər, mənce,
Həsrəti qəlbi yaxar.

Şairin eşqi tükənməz, artar,
Onun eşqiylə coşar irmaqlar.

Gönlü bir qönçədən incə,
Şairin ömrü bahar ömrü qədərdir, mənce...

YAŞIL GÖZLƏR

Bir alov dalğası parlar o yaşıl gözlərdə.
O yaşıl gözlər ümid bəslər ümidsizlərdə.

GÖZƏLİM HƏYAT

Hislərim olsaydı şəfəqlər kimi,
Gözəlim həyatı saçaqlayardım,
Qollarım olsaydı üfüqlər kimi,
Bütün kainatı qucaqlayardım.

DİNLƏYİN

Seçkilər göstərdi ki, hələ yamandır halımız,
Böylə getsə bitməyən zülmətdir istiqbalımız.

Məmləkət qan ağlayır, bağrında zillət, neyləsin?!
Millətin bir loğmanı yoxdursa, millət neyləsin?!

Yurdumuz, aləm bilir ki, qəhrəmanlar yurdudur,
Ordumuz yoxdursa da, türkdaşlarım bir ordudur.

Ordu millətdir bizim millət, ölümdən qorxmarız,
Sevgili millət yolunda top-tüfəngə baxmarız.

Uymarız fitvasına iblislərin, casusların,
Bir sürü satqın gedər ardınca binamusların.

Haqq deyən bir millətin imdadına haqq gəlməli,
Ayla yıldızla gülən üçrəngli bayraq gəlməli!

Ey bugün öz nəfini candan güdənlər, dinləyin,
Şöhrəti rüşvətlə almış boş gödənlər, dinləyin!

Tülkülərmi başçısı qurdlarla dolmuş vadinin?
Dinləyin şah beytini ustad Məhəmməd Hadinin:

"Bir nişan almaqdan ötrü satmayın bu milləti,
Millətin, milliyyətin heç yoxmu sizdə qeyrəti?!.."

1990

AXIB GEDƏN GÜNLƏRİMİZ

AXIB GEDƏN GÜNLƏRİMİZ

Ölüm sahili yox, dəniz,
Sularını bölənmi var?!
Axıb gedən günlərimiz
Hara gedir, bilənmi var?!

Başını qucaqlayanın,
Bağrını ocaqlayanın,
Ovuc-ovuc ağlayanın
Göz yaşını silənmi var?!

Günəş göylərin ilhamı,
Yerlərin toyu, bayramı,
Həyat üçün ölür hamı,
Ölüm üçün ölənmi var?!

Bu sevgi macərasında,
Məcnunların arasında,
Ağlayanlar sırasında
Ağlayana gülənmi var?!

Rəfiqim, bax bu dünyaya,
Sualla dolu dünyaya,
Bu dünyadan o dünyaya
Gedən gedir, gələnmi var?!

1982

EL GÜCÜ – SEL GÜCÜ

Dünya bir günəşli ömür sərgisi,
Çeşidli dillərdə könül şərqisi,
Vətəndaş olana vətən sevgisi
Sevgilər içində ən təmiz, oğlum!

Bil ki, zirvələrdən axan bulaqlar
Dərələr içində sel kimi çağlar,
Sellər taleyini çaylara bağlar,
Çaylardan yaranar bir dəniz, oğlum!

Bütün canlıların canı yeməkdir,
Ancaq insanların şanı əməkdir,
Mən demək nə demək, sən nə deməkdir?
Ulusdan ayrılsaq heçik biz, oğlum!

Ölüdür sağ ikən unudulanlar,
Uludur yox ikən yadda qalanlar,
Yel kimi sovuşar yüngül olanlar,
Ağırlar gedincə qalar iz, oğlum!

Hər kəsin önündə iki yol durur,
Birinci baharla qəlbi doldurur,
İkinci xəzana salıb soldurur,
Üçüncü yol yoxdur, ey əziz, oğlum!

1983

DOST SEVGİSİ

Dostu dünyada Rəfiqin demə çoxdur, ey dost,
Qələmi düşməninin bağrın oxdur, ey dost,
Gözü düşmən sarıdan daima toxdur, ey dost,
Düşməni olmayanın dostu da yoxdur, ey dost!

Dost saralmaz bir ağacdır ki verər bar gündə,
Bir sərinlik gətirər kölgəsi qızmar gündə,

Dayanar dağ kimi arxanda sənin dar gündə,
Gündə varsın sənə o, sən də ona var gündə!..

Dostların külfətidir doğma bilən külfətimi,
Verməərəm aləmə dostlarla olan ülfətimi,
Açaram sərvətə düşgünlərə dost sərvətimi,
Saçaram nifrətə layiqlərə öz nifrətimi!

Kəsilən duz-çörəyim düz çörək olmuş ancaq,
Bayquşu andıran alçaq əbədi tək qalacaq,
Üzünə, yüz yerə getsin, qapılar çırpılacaq,
Kimsəsiz qalmış iki başdaşıdır dostsuz ocaq!

Alqış ömrün bağına dostunu bağban edənə,
Onu illər boyu karvanına sarban edənə,
Dost gələn yolları eşqiylə çırağban edənə,
Bircə yol can deməyib, canını qurban edənə!

1983

ƏRDƏMLİLƏR

Söz almayaq nə ərəbdən, nə farsdan,
Yetər bizə aydan arı dilimiz.
Xəzər kimi doğub Kürdən, Arazdan
Şirvanımız, Muğanımız, Milimiz!

Qovulmalı yüz obadan, yüz eldən,
Uydurmaya ağlabatan deyənlər.
Xalqımıza yabançıdır əzəldən,
Yurdumuza "Atrapatan" deyənlər.

Midiyanın nə dəxli var bizlərə!
Gerçəkçilər aranılsın, bilinsin.
O sözlər ki örtü çəkir üzlərə
Ürəklərdən, diləklərdən silinsin!